## İNCƏSƏNƏT

**UOT 792.03**
**https://doi.org/10.59849/2218-4783.2025.1.278**

**ƏLİ QƏHRƏMANOV**

# MİRCƏLİL SEYİDOVUN YARADICILIĞINDA HÜSEYN CAVİD VƏ RƏNGLƏR DÜNYASI

*Məqalədə Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən olan, öz dəst-xətti ilə seçilən Azərbaycan Respublikasının Əməkdar rəssamı Mircəlil Seyidovun həyat və yaradıcılığından bəhs olunur. Rəssamın portret janrındakı əsərlərində Hüseyn Cavidin portreti, eləcə də bu dahi şəxsiyyətin bədii obrazlarına həsr etdiyi, silsilə əsərləri də diqqət mərkəzinə çəkilir. Tariximizin şanlı səhifələrinə müraciət edən rəssamın bu janrda yaratdığı tablolarda xalqımızın tarixi etnik-mənəvi yaşantısı və baxışları əks olunur. Bunlarla yanaşı onun Naxçıvan teatrında uğurla bədii quruluş verdiyi Hüseyn Cavidin "Şeyx Sənan", "Ana" və Mikayıl Müşviqin "Yenə o bağ olaydı" tamaşaları təhlil olunur. Həmçinin rəssamın çoxsaylı beynəlxalq sərgilərdə iştirakı da diqqətə çatdırılır.*

**Açar sözlər**: *Mircəlil Seyidov, Naxçıvan, rəssam, təsviri incəsənət, portret, janr.*

**Giriş.** Qədim tarixə, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mövcud qaynaqlarda qeyd olunduğu kimi, mürəkkəb və eyni zamanda şərəfli inkişaf yolu keçmiş, özünün zəngin mədəniyyəti və xalq yaradıcılığı ilə tarixin bütün dövrlərində önəmli inciləri ilə seçilmişdir. Bu baxımdan son illərdə respublikamızda bütün sahələrlə yanaşı, tariximizin, ədəbiyyatımızın, zəngin mədəniyyətimizin, incəsənətimizin, xalq yaradıcılığımızın, təsviri sənətimizin tarixinin öyrənilməsi, onların gələcək nəsillərə çatdırılması istiqamətində dövlətimiz tərəfindən davamlı işlər görülmüşdür.

Tarixən formalaşmış milli-mənəvi dəyərlərimiz arasında təsviri sənət, xüsusilə də rəssamlıq sənətinin kökləri çox qədim – tarixi Gəmiqaya təsvirlərinin yaranma dövrlərinə təsadüf etdiyindən bu diyarda böyük memarlar, rəssamlar və sənətkarlar yetişdiyinə tarixin özü şahidlik edib. Zəngin ənənələri olan Naxçıvan sənətkarlıq məktəbinin ən böyük nümayəndəsi XII əsrdə yaşamış Əcəmi Naxçıvaninin sayəsində memarlıq sahəsi daha da inkişaf etmişdir. Sözün əsl mənasında dəyərli inciləri ilə zənginləşən Azərbaycan dünya mədəniyyətinə mühüm töhfələr də bəxş etmiş və özünəməxsusluğu ilə seçilmişdir. XX əsrin əvvəllərindən isə Naxçıvanda bütün sahələrlə yanaşı incəsənət, xüsusilə təsviri sənət sahəsi ənənəvi çalarlarla inkişafını davam etdirir, professional rəssamlıq ənənələri yaranır. Azərbaycanda rəngkarlıq sahəsində ilk akademik rəsm üslubunda realist əsərləri ilə novatorluğa yol açan Bəhruz Kəngərli (1892-1922) realist rəssamlığın əsasını qoymuş, Naxçıvan rəssamlıq məktəbinə yeni ictimai məzmun gətirmiş, onu forma və təsvir vasitələri ilə zənginləşdirmişdir. Bir sözlə, Bəhruz Kəngərli bədii irsi ilə Azərbaycan təsviri sənətində yeni ənənələrin yaranmasına yeni nəfəs gətirməklə, ölkəmizdə bu sənətin bir çox janrlarının inkişafına da mühüm töhfələr vermişdir. Əgər milli rəngkarlığımızın inkişaf mərhələlərinə nəzər yetirsək onda onun özünəməxsus bədii-estetik dəyərlərlə zənginləşməsində Naxçıvanlı rəssamların qiymətli töhfələr verdiyinin şahidi olarıq. Bəhruz Kəngərli, İbrahim Səfi, Əkbər Kazımbəyov (Muğan) və digərlərinin rəngkarlığın müxtəlif janrlarında yaratdığı əsərlərilə ölkə sərhədlərini aşması bunu təsdiqləyir. Naxçıvanda böyük realist sənətkar Bəhruz Kəngərlinin təsviri sənət üslubu Adil Qazıyev, Şamil Qazıyev, Əyyub Hüseynov, Məmməd Qasımov və bir çox rəssamların ərsəyə gəlməsinə səbəb olub.

1940-cı ildə Naxçıvanda yeni yaradılan Rəssamlıq Məktəbinə Bəhruz Kəngərli məktəbinin yetirməsi, tanınmış rəssam Şamil Qazıyev rəhbərlik edib, burada rəssamlığın sirlərini gənclərə öyrədib. Həmin məktəbin təsiri ilə zaman-zaman Şəmil Mustafayev, Sabir Qədimov, Abuzər Qardaş-

bəyov, Mircəlil Seyidov, Yuran Məmmədov, Məmmədəli İsmayılov, Telman Abdinov, Məmmədəli Əkbərov, Əbülfəz Fərəcoğlu, Hüseynqulu Əliyev, Əli Səfərov, Həmzə Sadiqov, Ülviyyə Həmzəyeva, Cavid İsmayılov, Həbibə Allahverdiyeva kimi bir çox tanınmış rəssamlar ərsəyə gəlib. Onlar bu qədim yurdun təbiəti, tarixi, məişəti və abidələri ilə bağlı əsərlər yaradıb, Naxçıvanın rənglər dünyasını vəsf etməklə, səhnəqrafiya sahəsində də uğurlu addımlar atıblar. Onların içərisində Azərbaycan Respublikasının Əməkdar rəssamı, mərhum Mircəlil Mirələkbər oğlu Seyidovun adı fəxrlə xatırlanır.

**Həyatı, gənclik illərində fəaliyyəti.** Mircəlil Seyidov 1948-ci il fevral ayının 22-də Naxçıvan şəhərində anadan olub. Orta məktəbdə oxuduğu illərdə rəssamlıq sənətinə böyük maraq göstərib. Orta məktəbi müvəffəqiyyətlə bitirən Mircəlil 1966-cı ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olur və məktəbi uğurla bitirir. O, rəssamlıq məktəbində oxuduğu illərdə vaxtaşırı tələbələrin əsərlərindən ibarət sərgilər təşkil edilirdi. Mircəlil də yaratdığı tablolarla həmin sərgilərdə fəallığı ilə seçilirdi. Tələbəlik illərində sənətin dərinliklərinə yiyələnən Mircəlil Naxçıvana qayıtdıqdan sonra müxtəlif sənət əsərləri üzərində işləyir. Həyatını rənglər dünyasına bağlayan gənc sənətkar qəlbinin istəyi ilə xəyalında canlandırdığı arzularını rənglərin dili ilə ifadə etməyə başlayır. Bu qədim diyarın təkrarolunmaz təbiətini kətan üzərinə həkk edir. Həmin illərdə Ulu öndər Heydər Əliyev istedadlı gəncləri SSRİ-nin müxtəlif ali məktəblərində təhsillərini davam etdirməyə göndərirdi. Mircəlil də 1974-1979-cu illərdə Sankt-Peterburqda (Leninqrad) V.Muxina adına Ali Bədii-Sənaye Məktəbində sənətin sirlərini təkmilləşdirir. O, təhsilini bitirdikdə sonra doğma şəhərinə qayıdır və burada fəaliyyət göstərir. 1971-ci ildə Ulu öndər Heydər Əliyevin göstərişi ilə Naxçıvanda Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı yaradılır. Təşkilatın təsis yığıncağında SSRİ Rəssamlar İttifaqının üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar İncəsənət xadimi, tanınmış teatr rəssamı Məmməd Qasımov təşkilatın sədri seçilir. Həmin dövrdə Naxçıvan şəhərinin Atatürk küçəsində hərtərəfli yaradıcılıq şəraiti olan iki mərtəbəli binada rəssamlara yaradıcılıq emalatxanaları verilir. Mircəlil də həmin emalatxanaların birində yaradıcılığını davam etdirir və gənclik illərində ən gözəl əsərlərini də burada yaradır. Onun yaratdığı əsərlərdəki aydın fikir, rəng çalarlarının cazibəsi, forma gözəlliyi və məzmun dərinliyi rəssama böyük uğur qazandırır. Bəzən tamaşaçılara çox adi görünən məqamları rənglərin dili ilə kətana köçürən Mircəlil Seyidovun əsərləri hər kəsi düşündürməyə vadar edirdi.

**Mircəlil Seyidovun yaradıcılığında Hüseyn Cavid dünyası.** Azərbaycan Respublikasının Əməkdar rəssamı Mircəlil Seyidov təsviri sənətimizin tarixi janrına müraciət edən, bu sahədə ən layiqli töhfə verən sənətkarlardandır. O, yaradıcılığının ilk illərində tariximizin şanlı səhifələrinə müraciət edərək Hüseyn Cavidin portretini çəkməklə ədəbiyyat səhifəmizdə böyük iz buraxmış dahi şəxsiyyətin bədii obrazını silsilə əsərlərində yaratmağa nail olmuşdu. Rəssamın bu janrda yaratdığı tablolarda xalqımızın tarixi etnik-mənəvi yaşantısı və məziyyətlərini hifz edən şəxsiyyətin baxışları əks olunur. Bu portretlərdə obrazların bədii kamilliyi ilə yanaşı, tarixi durumun inandırıcı ifadəsi də diqqəti cəlb edir. Sənətşünas Nizami Alıyev yazır: “Yaradıcılığının ilk illərində realizm cərəyanında istədiyi mürəkkəb sujetli əsərlər Mircəlil yaradıcılığının ana xəttini müəyyənləşdirməklə yanaşı, ona böyük uğur qazandırdı. O, tarixi janrda böyük şair, dramaturq Hüseyn Cavidin yaradıcılığına müraciət etmiş, şairin fəlsəfi dünyagörüşünün əsirinə çevrilən rəssam bir-birinin ardınca Cavid dünyasına işıq salan silsilə portretlər yaratmışdır. Rəssamın “Hüseyn Cavid dünyası” əsərində sənət piramidasının zirvəsində təsvir etdiyi Cavid portretini parlayan ulduza bənzətməklə ətrafındakıları da Cavid işığının nuruna qərq etmişdir. Bu əsərdə Cavid dünyasının gözəllikləri, ülvi məhəbbəti rəssamın sehrli fırçası ilə tamaşaçıya çatdırılır” [1, s. 269].

Cavid sənətinə, Cavid şəxsiyyətinə qəlbən vurğunluq Mircəlildə erkən yaşlarından başlamışdır. Bunu Mircəlilə aşılayan atası Mirələkbər kişi olmuşdur. Mirələkbər kişi Hüseyn Cavidin atasının doğulduğu – Şahtaxtı kəndində anadan olmuş, xeyli müddət orada yaşamış, daha sonra Naxçıvan şəhərinə köçmüşdür. Mirələkbər kişi Cavid haqqında bildiklərini, eşitdiklərini Mircəlilə söylə-

mişdi. Bununla da oğlunda Cavidə qarşı məhəbbət yaranmışdı. Mircəlil söyləyirdi: "Hələ Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxuyarkən Cavid bədii irsinə xüsusi maraq göstərir, əsərlərini əldə edib oxuyurdum. Azərbaycan Dövlət Teatrında uğurla tamaşaya qoyulan "Xəyyam" pyesinə baxdıqdan sonra belə qərara gəldim ki, Cavid dramaturgiyası sözün əsl mənasında bəşəri ideyalar və təmiz hisslər dramaturgiyasıdır. Ümumiyyətlə Cavidin dərin məzmunlu pyesləri həmişə məni düşündürmüşdür. Buna görə də mən "Cavid dünyası" tablosu üzərində xeyli işləmişəm. Bu əsər artıq sərgidə nümayiş olunub. Deyilənlərə görə zəhmətim hədər getməyib. Bundan başqa hazırda Cavid pyeslərinin süjetləri əsasında silsilə işlər görürəm. Bu, Cavid yubileyinə mənim hədiyyəmdir" [7, s. 46].

Rəssam ustalıqla yaratdığı "Cavid dünyası" əsərində mütəfəkkir şairin bütün əsərlərində olan obrazları – əzabçəkən insanları xatırladan buludların üzərində cəmləşdirib. Əsərdə göy üzündən yer üzünə süzülən bir işıq buludlarda cəmlənmiş obrazlar yığıncağını şöləndirir və Əmir Teymurun da İstanbulda yürüşü həmin buludlar arasında gözəgörünməz olur. Həmçinin, rəssam Cavid yaradıcılığında Xeyir və Şəri qabarıq vəhdətdə təqdim edir. Ümumiyyətlə istedadlı rəssam Cavid fəlsəfəsini dərindən duyaraq kətan üzərində fırça açımı ilə çox ustalıqla işləyib. Aşağıdakı fikirdə deyildiyi kimi Mircəlilin "Qayğı", "Portret", "Min bir gecə", "Bürkü silsiləsindən qayğı", "Dialoq", "Portret 2", "Söhbət 2", "Qayğı 15", "Dalğın qız", "Bürkü 2" və s. portretlərində rəssamın fərdi üslubu, parlaq ifadə tərzi, sənətdə müasirlik ruhu, təzə forma axtarışlarına güclü meyli, müasirliyin fəlsəfi-etik problemlərinin fırça dili ilə izahı və anlamı onun əsərlərinin dəyərini şərtləndirən estetik amillərdəndir. "1986-1990-cı illərdə yaratdığı tablolarda, rəssamın yeni mərhələyə keçməsi daha aydın hiss olunur. Onun "Rəssamın dünyası", "Rəssamın mələkləri", "Min bir gecə" silsilə əsərlərində realizmdən mücərrədliyə meyli açıq-aşkar görünməkdədir" [6, s. 7].

Ümumiyyətlə, Mircəlil Seyidov ömrünün bir neçə ilini böyük mütəfəkkir, şair və dramaturq Hüseyn Cavidə həsr edib. Cavid dünyasını yaşayıb onun sənətini sevmək, bu sənətin ecazkarlığına valeh olmamaq, ölməz sənətkarın əsərlərindən qidalanmamaq mümkün deyil. Belə demək mümkünsə, Mircəlil yaradıcılığının əsas hissəsini Cavid obrazına, Cavid mövzusuna həsr etmiş və böyük bir silsilə əsərlər yaratmışdır. O, Cavid dünyasına həsr etdiyi silsilə əsərlərində, xalqımızın mənəvi varlığını obrazlı şəkildə, fəlsəfi ümumiləşdirmə yolu ilə verməyə çalışmışdır. Bu baxımdan da tamaşaçılar onun əsərlərinə baxarkən rəssamın qəlbinin döyüntülərini eşidir, onun həyəcanına şərik olur. Müxtəlif janr və üsullardan istifadə edən sənətkar bir-birinin ardınca "Cavidi düşünərkən", "Cavid gəlir", "Cavidlə Xəyyamın dialoqu", "Cavidlə Şeyx Sənanın dialoqu", "Cavidlə İblisin dialoqu", "Son mənzərə", "Şairin yuxusu" tablosunda Cavid gözəllik aşiqidir, məhəbbət nəğməkarıdır. Böyük şair yuxuda da gözəlliklər, sevinc, səadət görür. Göy qurşağı tabloya xüsusi yaraşıq verir. Yeddi rəngin əlvanlığı şairin yuxusuna sanki işıq, səadət gətirir (müəllif bu tablonu aftoqrafla gənclik dostu, Pedaqogika elmləri doktoru, professor İsmayıl Əliyevə hədiyyə edib). "Cavid dünyası" (Türkiyə Cümhuriyyətinin Ankara şəhərində Doktor Mövlud Topbaşın şəxsi kolleksiyasında mühafizə olunur) silsilə əsərlərində o, Cavidin mürəkkəb həyat fəlsəfəsini, onun faciələrdən, zamanın buxovlarından saflığa ucalan surətini yaratmaqla, özünü dərk etməyə çalışır, istedadını mükəmməlliyin zirvəsində cilalayırdı. Məhz buna görə də Mircəlil Seyidovun yaratdığı əsərlər əbədiyaşarlıq hüququ qazanıb.

Türkiyənin Antaliya Ağdəniz Universiteti Gözəl sənətlər fakültəsinin Rəsm bölümündə Mircəlil Seyidovla həmkar olan sənətşünaslıq üzrə fəlsəfə doktoru Tərlan Mehdiyeva yazır: "XX əsr klassik ədəbiyyatımızın korifeyi Hüseyn Cavid sənətinə sonsuz məhəbbətdən, Cavid sevgisinin ilahi qüdrətinə heyranlıqdan yaradılmış romantik yönümlü, qüvvətli emosional ovqata malik bu silsilə əsərlər kamil sənət nümunələridir. Rəssamın Hüseyn Cavidə həsr olunmuş silsilə əsərlərində böyük ustadın müxtəlif ovqatlı, bir-birini təkrarlamayan onlarla obrazına rast gəlirik. Onun "Hüseyn Cavid dünyası" adlı əsərində, Cavidin qəlbini hər an riqqətə gətirən qəhrəmanları ilə əhatə olunmuş bəyaz buludlar üzərindəki obrazı bizi sehrli bir dünyaya aparır... 1986-1990-cı illərdə yaratdığı tablolarda,

rəssamın yeni mərhələyə keçməsi daha aydın hiss olunur. Onun "Rəssamın dünyası", "Rəssamın mələkləri", "Min bir gecə" silsilə əsərlərində realizmdən mücərrədliyə meyli açıq-aşkar görünməkdədir" [5, s. 4-7].

**Mircəlil Seyidovun rənglər dünyası sərgilərdə.** Rəssamın şah əsərlərindən biri də "Sənət və sənətçilər"dir. Sənətkarın bu əsərində bir bütövlük əks olunub. Onun Böyük Britaniyanın məşhur rok musiqi qrupuna həsr etdiyi "Pink Floyd" əsəri də bir çox ölkələrdə xüsusi marağa səbəb olmuşdu.

1990-cı ildən etibarən Mircəlil Seyidovun beynəlxalq əlaqələri geniş vüsət alır. Ümumiyyətlə rəssam yaratdığı əsərlər 41 dəfə yerli və beynəlxalq sərgilərdə nümayiş olunmuşdur. Onun respublikamızla yanaşı qonşu dövlətlərdə: Türkiyə Respublikasında, İran İslam Respublikasında, Rusiya Federasiyasında, Orta Asiya və Avropa ölkələrində: Bolqarıstanda, Hollandiyada, Almaniyada fərdi yaradıcılıq sərgiləri keçirilmişdir. Həmin sərgilərdə onun əsərləri izləyicilərin diqqətini cəlb etmişdir. Azərbaycanla yanaşı xarici ölkələrdə də albomları və bukletləri nəşr olunmuşdur.

Tanınmış rəssam Mircəlil Seyidovun ölümünün 5-ci ildönümündə – 2014-cü il yanvarın 24-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına Sərgi Salonunda fərdi sərgisi açılır. Yanvarın 26-dək davam edən sərgidə rəssamın 75 əsəri nümayiş olunur. Sərginin açılışında Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov bu torpağın əzəmətini, gözəlliyini duyub əsərlərində canlandıran Mircəlil Seyidovun Azərbaycan rəsm sənətinin inkişafına verdiyi töhfələrdən söz açmış, onun təkrarsız əsərlərinin həmişə tamaşaçı rəğbəti qazanacağına əminliyini bildirərək demişdir: "Mircəlil Seyidov həyatının mənasını rənglərdə tapan və torpağını qəlbən sevən bir rəssam idi. Tanınmış rəssam doğma vətənimizin əsrarəngiz gözəlliklərini öz əsərləri ilə çox yerdə tanıtmışdır. O istər Bakıda, istərsə də xarici ölkələrdə keçirilən sərgilərdə Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Buna görə də Mircəlil Seyidovun əsərləri əbədiyaşarlıq hüququ qazanmışdır. Onun Azərbaycan rəsm sənətinə bəxş etdiyi özünəməxsus yaradıcılıq nümunələri gənc istedadlı rəssamların yetişməsinə təkan verəcəkdir" [2]. Həmin sərgidə iştirak edən Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Məmmədəli Ələkbərov rəssamın Cavidlə bağlı əsərlərini yüksək qiymətləndirərək demişdir: "İstedadlı rəssam dərindən duyduğu Cavid fəlsəfəsini kətan üzərində çox ustalıqla təqdim etmişdir... Rəssamın ustalığı ondadır ki, rənglər harmoniyasından mükəmməl istifadə etmişdir. Onun qəlbinin səsi, içinin musiqisi rənglərə çevrilmişdir" [2]. Sərgidə sənətkarın bütün tabloları bədii kamilliyi və orijinallığı ilə seçilirdi. Rəssamın 20 Yanvar hadisələrinə həsr olunmuş tablolarında Azərbaycan xalqının faciəsi əks olunur. "Qaçqınlar", "Əzab çəkmiş qoca" və "Həsrət" əsərlərində bir milyondan çox qaçqın həyatı yaşayan insanların sarsıntılarını rəssam kətan üzərinə köçürmüşdür.

Hüseyn Cavid Azərbaycan dramaturgiyasında poetik-romantik teatrın yaradıcısı, yüksək bəşəri fikirli və orijinal dəst-xətli bir ədib kimi tanınmış və sevilmişdir.

**Mircəlil Seyidovun səhnəqrafika sahəsində fəaliyyəti.** Məlum həqiqətdir ki, Cavid yaradıcılığına diqqət ümummilli lider Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəlişindən (1969) sonra geniş vüsət almış, görkəmli dramaturqun anadan olmasının 100 illik yubileyinin təntənə ilə keçirilməsi barədə 1981-ci ilin iyul ayının 21-də qərar verilmişdir. Dahi öndərin göstərişi ilə 1982-ci il noyabrın 2-də şairin nəşi uzaq Sibirdən Naxçıvana gətirilmiş və noyabrın 3-də dəfn olunmuşdur. Qərara uyğun olaraq Azərbaycanın bütün bölgələrində yubiley tədbirləri keçirilmişdir. Naxçıvanda da Cavidin anadan olmasının 100 illik yubileyi təntənə ilə qeyd edilir. Yubileylə əlaqədar görkəmli dramaturqun "Şeyx Sənan" faciəsi (1982) rejissor Vəli Babayevin quruluşunda (rəssam M.Seyidov) hazırlanır. Cavid sənətinə vurğunluğun nəticəsidir ki, rəssam Mircəlil Seyidov öz istedadına, dünyagörüşünə arxalanaraq təsviri sənətin səhnəqrafiya sahəsində də özünü sınayır və uğur qazanır. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqi Dram Teatrında Mircəlil bir quruluşçu rəssam kimi üç əsərə – "Şeyx Sənan", "Ana" (Hüseyn Cavid) və "Yenə o bağ olaydı" tamaşalarına (Mikayıl Müşviq) uğurla bədii quruluş vermişdir.

25 illik fasilədən sonra 1982-ci il aprelin 24-də H.Cavidin "Şeyx Sənan" faciəsi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqi Dram Teatrının səhnəsində (quruluşçu rejissor Vəli

Babayev, bəstəkar Fikrət Əmirov, quruluşçu rəssam Mircəlil Seyidov) tamaşaçılara təqdim olundu. Quruluşçu rəssam Mircəlil Seyidovun teatr aləmində ilk debütü olmasına baxmayaraq, Cavid dünyasının böyük əzəmətinə – romantik aləminə yaxından bələd olduğundan dramaturqun fəlsəfi ruhunu düzgün qavradığından, poetik teatrın estetik prinsiplərini əsas götürərək, özünün maraqlı emosional sənət işi ilə tamaşaya verdiyi bədii tərtibatı səhnədə də sənətkarlıqla təcəssüm etdirmişdir [3, s. 215].

Əvəzolunmaz dramaturq Hüseyn Cavidin "Ana" mənzum faciəsi 1983-cü il sentyabr ayının 29-da (quruluşçu rejissor Əliqismət Lalayev, bəstəkar Ramiz Mirişli, quruluşçu rəssam Mircəlil Seyidov) Naxçıvan teatrının ikinci sənhəsi olan Cavid Poeziya Teatrında uğurla tamaşaya qoyulur. Tamaşada iki mühüm səhnə diqqət mərkəzində dayanır: birincisi; ananın oğlu haqqında nigarançılığı və İsmətin öz sevgilisi Qanpolada bəslədiyi pak eşqin ifadəsi, ikinci isə Səlma ananın çox sevdiyi oğlunun qatilinə bilmədən sığınacaq verməsi. Ana ürəyinin dərinliyi, ana qəlbinin əzəməti Cavid qələmində necə də qürurludur, necə də vüqarlıdır. Əsərin mövzusu müasir Dağıstan həyatından alınmışdır. "Tamaşanın bədii tərtibatında rəssam Dağıstan xalqının milli ornamentlərlə bəzədilmiş geyimlərindən yerli-yerində istifadə etmişdi. Haşiyələnmiş qara çadra isə tamaşada rəssam işinin ümumi leytmotivinə çevrilmişdi. Bədii tərtibatda ana evinə, ana ocağına əbədi işıq salan, digər yandan həmin çıraqların yad nəfəslər tərəfindən söndürülməsi faciənin daha da gərginləşməsinə səbəb olur. Tamaşanın bədii tərtibatında rəssam Mircəlil Seyidov öz təfəkkürünə arxalanaraq yaddaqalan cizgilərlə tamaşaya xüsusi təravət gətirir. Quruluşçu rəssam Cavid ədəbi irsini başa düşən, onun əzəmətli dünyasının dərinliyini bilən bir sənətkar idi. Tamaşada rejissor, rəssam və bəstəkar triosu ciddi şəkildə bir-birini tamamlayırdı. Hər üçü – rejissor, rəssam, bəstəkar Cavidin romantik pafosunun daxili mahiyyətini, hiss və həyəcanlarını, onun qarşıya qoyduğu ali məqsədi müasir teatr vasitələri ilə təqdim etmişdilər" [4, s. 103; 8].

1937-ci ilin repressiya qurbanlarından olan talantlı şair Mikayıl Müşfiqin anadan olmasının 80 illiyi münasibəti ilə onun şeir, poema və haqqında toplanılmış arxiv materialları əsasında teatrın rejissoru Vaqif Əsədov tərəfindən səhnələşdirilmiş "Yenə o bağ olaydı" tamaşası 16 oktyabr 1988-ci ildə (Vaqif Əsədovun quruluşunda, rejissor Ə.Əsgərov, rəssam M.Seyidov, musiqi tərtibatçısı Ə.Ələkbərov) teatrsevərlərə təqdim olunur. Tamaşanın aparıcı siması Mikayıl Müşfiqdir. Onun bütün əzəmətli və vüqarlı, nəcib və ülvi keyfiyyətləri, sevgi dolu anları, keçdiyi məşəqqətli-əzablı yolları səhnədə canlandırılır. Tamaşadan belə bir qənaətə gəlinir ki, Müşfiq və xəyanət? İncə ruhlu, qəlbi vətən eşqi ilə döyünən, gələcəyə işıqlı nəzərlə baxan Müşfiq "qara fikirli", "mürtəce amallı" bir adam kimi "ifşa olunur". Buna necə inanmaq olar? Əslində "bu xöşbəxt dünyadan necə əl çəkim", deyən bir şairin, necə ola bilər ki, beynində qara fikirlər oyansın? Buna heç kim inanmazdı. Qönçə ikən Müşfiqi soldurdular. Lakin dövran Müşfiqi yenidən min sevinc, min fərəhlə həyata qaytardı. İstedadlı aktyor Əsgər Əsgərovun ifasında Müşfiq sevimli ər, duyğulu və incə ruhlu bir şair, gözəl bir sirdaş, doğma torpağa bütün varlığı ilə bağlanmış biri idi. Müşfiq də Hüseyn Cavid həyatı yaşamışdı. Ona da şər-böhtan atılmışdı. Cavan ikən onun da çırağını söndürmüşdülər. Dövran Müşfiqi də Cavid kimi yenidən həyata qaytardı. Odur ki, rəssam Müşfiqin başına gələn bəlaları tamaşaya verdiyi bədii tərtibatda rənglərin dili ilə təcəssüm etdirmişdir. Quruluşçu rəssam Mircəlil Seyidovun teatr sahəsindəki növbəti teatr görüşü – yaradıcılıq işi mütəxəssislər tərəfindən yüksək dəyərləndirilmişdi.

**Nəticə.** Rəssamın əsərləri Rusiya Federasiyasının Rəssamlar İttifaqında (keçmiş SSRİ Rəssamlar İttifaqında), Moskvada Tretyakov Qalereyasında, Almaniya, Avstriya, ABŞ, Türkiyə, Fransa, İngiltərə, İsveç, İspaniya, İtaliya, Hollandiya, Polşa, Bolqarıstan, Kanada, Braziliya, Venesuela, Sinqapur, İsrail və digər xarici ölkələrdə, Azərbaycan Mədəniyyət Nazirliyində, Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda, Azərbaycan Bədii Fondunda, Naxçıvan Dövlət Rəsm Qalereyasında, Naxçıvan Dövlət Tarix Muzeyində, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli musiqili

Dram Teatrında, Hüseyn Cavidin Naxçıvandakı Ev Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində və şəxsi kolleksiyalarda mühafizə olunur.

Mircəlil Seyidov SSRİ Rəssamlar İttifaqına və Azərbaycan Rəssamlar İttifaqına (1981) üzvü seçilir, 1987-1989-cu illərdə Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatına sədrlik edir. 1999-2004-cü illərdə Türkiyənin Antaliya şəhərindəki Ağdəniz Universitetinin Gözəl sənətlər fakültəsində müəllim və 2004-2005-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri vəzifəsində işləyir. Rəssamın yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi (1982), Azərbaycan Respublikasının Əməkdar rəssamı (2002) fəxri adlarına layiq görülmüşdür.

İstedadlı rəssam Mircəlil Seyidov ömrünün müdrik çağında 2009-cu il iyun ayının 18-də, 61 yaşında Naxçıvan şəhərində vəfat etmişdir.

## ƏDƏBİYYAT


1. Alıyev N. Hüseyn Cavid obrazları Mircəlil Seyidovun yaradıcılığında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, Naxçıvan: Tusi, 2007, № 3.
2. Bakıda tanınmış rəssam Mircəlil Seyidovun fərdi sərgisi açılmışdır // Azərtac: https://azertag.az 2014, 24 yanvar.
3. Qəhrəmanov Ə. Naxçıvan teatrında rejissor sənəti. Naxçıvan: Əcəmi, 2020, 448 s.
4. Qəhrəmanov Ə. Hüseyn Cavid və Naxçıvan teatrı. Naxçıvan: Əcəmi, 120 s.
5. Mehtiyeva T. Mircəlil Seyidovun rənglər dünyası. Naxçıvan: Əcəmi, 2011, 80 s.
6. Mircəlil Mirələkbər oğlu Seyidov. Kataloq. Antalya (Türkiye), 2002, 48 s.
7. Vəzirov C. Cavid dünyası. Naxçıvan: Məktəb, 2005, 86 s., s. 46.
8. Vəzirov C., Qəhrəmanov Ə. Hüseyn Cavid və Naxçıvan teatrı. "Elm" qəz., 2007, 15 noyabr.
9. "Kommunist" qəz., 1923, 2 iyun.
10. Naxçıvan MDA: F. 40, siy. 4, iş 7.


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aliqehreman@yahoo.com***

**Ali Gahramanov**

## HUSSEIN JAVID AND THE WORLD OF COLORS IN THE WORKS OF MIRJALIL SEYIDOV

The article investigates the life and work of the Honored Artist of the Republic of Azerbaijan, Mirjalil Seyidov, one of the brightest representatives of the Nakhchivan school of painting, distinguished by his unique style. Among the portrait works of the artist, a special place is occupied by the portrait of Hussein Javid and a series of works dedicated to the artistic images of this genius. The paintings created in this genre by the artist, referencing the glorious pages of our history, reflect the historical, ethno-spiritual experience and views of our people. Furthermore, the plays of Hussein Javid "Sheikh Sanan", "Mother" and Mikayil Mushfvig "If Only That Garden Were Again" are analyzed. The production designer of these plays in the Nakhchivan Theater was M.Seyidov. The artist's participation in numerous international exhibitions is also noteworthy.

**Keywords:** *Mirjalil Seyidov, Nakhchivan, artist, fine art, portrait, genre.*

**Али Гахраманов**

## ГУСЕЙН ДЖАВИД И МИР КРАСОК В ТВОРЧЕСТВЕ МИРДЖАЛИЛА СЕИДОВА

В статье рассматривается жизнь и творчество заслуженного художника Азербайджанской Республики Мирджалила Сеидова, одного из ярких представителей нахчыванской школы живописи, отличавшегося своим неповторимым стилем. Среди портретных работ художника особое место занимает портрет Гусейна Джавида, а также серия работ, посвященных художественным образам этого гения. Картины, созданные в этом жанре художником, обращающимся к славным страницам нашей истории, отражают исторический, этнодуховный опыт и взгляды нашего народа. Кроме того, анализируются пьесы Гусейна Джавида «Шейх Санан», «Мать» и Микаила Мушфвига «Снова был бы тот сад», художником-постановщиком которых в Нахчыванском театре являлся М.Сеидов. Примечательно также участие художника в многочисленных международных выставках.

**Ключевые слова:** *Мирджалил Сеидов, Нахчыван, художник, изобразительное искусство, портрет, жанр.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 06.02.2025**
**Son variant 06.03.2025**